*UOT 372.3/.4*

# SİNİF ŞAGİRDLƏRİNİN TƏLİM FƏALLIĞINDA MƏKTƏBƏQƏDƏR TƏHSİL STANDARTLARININ TƏSİRİ

**Türkan Bəxtiyar qızı Əliyeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0007-2516-6196
**E-mail:** eliyevaturkan942@gmail.com

***Açar sözlər:*** *kurikulum, şagird, məktəbəhazırlıq qrupu, ibtidai sinif, standart, təlim nəticəsi.*
***Ключевые слова:*** *учебный план, студент, подготовительная группа к школе, начальная школа, стандартный, результат обучения*
***Key words:*** *curriculum, student, school preparatory, elementary school, standard, learning outcome*

Uşaqların məktəbəqədər dövrlərində öyrənmə vərdişləri qazanması, onların akademik, sosial və emosional inkişafında mühüm rol oynayır. Məktəbəhazırlıq dövrü uşaqların təhsil həyatına daxil olmasının ilk mərhələsi olduğu üçün sonrakı təhsil dövrlərində də uğurlu olmaları üçün vacib zəmin yaradır. Məktəbəhazırlıq kurikulumunda olan standartlar həyata keçirildiyi zaman uşaqlarda hərtərəfli inkişafı təmin etməklə yanaşı ünsiyyət bacarıqlarını, özünəinam hissini inkişaf etdirməkdə kömək edir, eyni zamanda öyrənmə prosesinə həvəs yaradır. Kurikulumdakı əsas hədəflərdən biri uşaqları məktəb dövrünə psixoloji adaptasiyasını təmin etməkdir. Uşaqlar məktəbəqədər dövrdən sonra ilk dəfə sosial mühitə daxil olurlar və nizam-intizam qaydaları ilə tanış olurlar. Bu mərhələdə dostluq qurmaq, əməkdaşlıq etmək, paylaşmaq, problemləri həll etmək kimi bacarıqlar formalaşır ki, bu bacarıqlar da uşaqların gələcək akademik və sosial həyatında çox vacib bir rola malikdir. Uşaqlar özyaşıdları ilə birlikdə fəaliyyətə cəlb olunur, bu da onların kollektiv mühitə daha tez uyğunlaşmasına şərait yaradır. Məktəbəhazırlıq mərhələsində uşaqlar rəqəmlərlə, formalarla tanış olur və müxtəlif koqnitiv fəaliyyətlərdə iştirak edir. Bu təməllərin qoyulması ibtidai sinif tədrisində daha mürəkkəb biliklərin mənimsənilməsi üçün vacibdir. İlkin mərhələdə öyrənilən sadə biliklər yəni, sadə həndəsi formalar, rəqəmlər və hərflər uşaqların növbəti təhsil mərhələlərində dil və riyazi bacarıqlarını asanlıqla qavramasına imkan yaradır. Oyunlar, yaradıcı fəaliyyətlər, qrupa əsaslanan tapşırıqlar kimi interaktiv təlim metodlarından istifadə etmək uşaqlarda məntiqi düşünmə və problemi həll etmə kimi bacarıqları inkişaf etdirir. Bu metodlardan istifadə etməklə uşaq təlim materiallarını mənimsəməklə yanaşı, öyrənmə prosesində aktiv iştirak edir. Məktəbəhazırlıq prosesindən uğurla keçən uşaqlar ibtidai sinifdə təhsil aldıqları zaman müəyyən bacarıqlara artıq yiyələnmiş olurlar. Onların həm təlim prosesində, həm də sosial həyatlarında əldə etdiyi nəticələr kurikulumun uğuruna bir işarədir. Məktəbəhazırlıq mərhələsindən sonra ibtidai təhsildə uşaqlar dərs materiallarına daha tez uyğunlaşırlar və buna görə də öyrəndiklərini daha yaxşı və asan mənimsəyirlər. Uşaqların rəqəmləri, hərfləri, sadə formaları tanıdıqları üçün yazı və ifadə bacarıqlarında da irəliləyiş göstərirlər. Təməl biliklərə malik olmaq onlara daha mürəkkəb tapşırıqların

öhdəsindən asanlıqla gəlməyə imkan verir. Məktəbəhazırlıq mərhələsində sosial-emosional bacarıqlarının formalaşdırılması uşaqların özünəgüvən hissini artırır. Özlərini asanlıqla ifadə etmək, sinif yoldaşları ilə ünsiyyət qurmaq və əməkdaşlıq etmək onların sinif mühitində özlərini daha rahat hiss etmələrinə şərait yaradır. Artıq uşaqlar psixoloji baxımdan məktəbə hazır olduqları üçün öyrənmə prosesinə olan maraqları güclənir. Məktəbəhazırlıq kurikulumu uşaqlarda yaradıcı düşünmənin formalaşmasına təkan göstərir. Onlar dərs prosesində yalnız müəllimin dediyini təkrarlamaqla qalmır, həm də öz fikirlərini ifadə edir, problemə həll yolları tapır və bu da uşaqları düşünməyə sövq edir. Məhz bu mərhələdə formalaşan həll etmə və yaradıcı düşünmə bacarığı uşaqların həm təhsil həyatlarında, həm də gündəlik həyatlarında üzləşdikləri problemləri daha asan həll etmələrinə kömək edir. İnteraktiv təhsildə obyekt-subyekt münasibəti yox, subyekt-subyekt münasibəti olur. Buna görə uşaqlar təlim prosesində fikirlərini daha asanlıqla ifadə edə bilirlər. Bu onların nitq qabiliyyətlərini formalaşdırmaqla yanaşı özünəinam hissini də inkişaf etdirir.

Oyun əsaslı təlim metodları uşaqlara dərs prosesinə daha maraqla yanaşmasına şərait yaradır. Oyunlar uşaqlara təlim prosesini daha əyləncəli və maraqlı formada təqdim edir və onların prosesə olan marağını artırır. Bu metodlar həm də uşaqları sosiallaşmağa sövq edir.

Fərdiləşdirilmiş təlim metodlarında uşaqların öz potensiallarına uyğun tədris metodları təqdim edilir və uşaqların fərdi bacarıqları nəzərə alınır. Bildiyimiz kimi, hər bir uşağın fərqli öyrənmə tipi var və bu metodların istifadəsi uşaqların fərdi bacarıqlarını maksimum dərəcədə inkişaf etdirir.

Komanda bacarıqlarına əsaslanan təlim prosesi uşaqların qrupla işləmə bacarıq və vərdişlərini artırır. Uşaqlar bir-birinə dəstək verərək komanda işində birlikdə çalışırlar, həmyaşıdları ilə ünsiyyətdə olurlar və birlikdə fəaliyyət göstərməyi öyrənirlər.

Məktəbəhazırlıq kurikulumu, uşaqların ibtidai təhsil mərhələsində uğur qazanmasında əhəmiyyətli rol oynayır. Bu mərhələdə öyrənilən əsas bacarıq və vərdişlər uşaqların öyrənmə prosesinə aktiv şəkildə qoşulmasını təmin edir. Kurikulum uşaqların əqli, fiziki və sosial-emosional inkişafını dəstəkləyir. Uşaqların özünəinam hissi artır və təhsil prosesində fəal iştirak etmələrinə sövq edir. Məktəbəhazırlıq mərhələsində öyrənilən bilik və bacarıqlar onların gələcək təhsil həyatında uğur qazanması üçün əhəmiyyətli təməl rolunu oynayır.

**Problemin aktuallığı.** Məktəbəhazırlıq dövrü uşaqların təhsil həyatında ilkin addımlarının atdığı mərhələdir. Son dövrlərdə təhsil sistemində məktəbəqədər təhsilin vacibliyi daha çox artmışdır və bu mərhələdə həyata keçirilən təhsil standartlarının uşaqların ibtidai təhsil dövründəki uğurlarına təsir etməsi aktual məsələlərdən biridir.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi məktəbəqədər təhsil standartlarının ibtidai sinif şagirdlərinin təlim fəallığına olan təsirinin uşaqların hərtərəfli inkişafına necə təsir etdiyini göstərir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Bu tədqiqat işinin nəticələri həm məktəbəqədər təhsil sahəsində çalışan, həm də ibtidai təhsil sahəsində çalışan müəllimlər üçün faydalı ola bilər, çünki onlar məktəbəqədər təhsil standartlarını təlim prosesində daha effektiv tətbiq etməklə, uşaqların məktəbə adaptasiya prosesini asanlaşdıra bilərlər.

**Ədəbiyyat**

1. Məktəbəqədər təhsil proqramı (kurikulum), 2022.
2. Hüseynov, A. İbtidai siniflərdə tədris metodları və məktəbəqədər hazırlığın əhəmiyyəti // Müasir təhsil, 2018, № 3, s. 67-74
3. Səfərova, E. "Uşaqların sosial-emosional inkişafında məktəbəhazırlıq proqramlarının təsiri // Təhsildə innovasiyalar, 2017, № 2, s. 15-22
4. Quliyev, R. Məktəbəhazırlıq proqramlarının effektivliyi // Təhsil və inkişaf, 2019, № 5, s.89-95
5. Barnett, W.S. "Preschool Education and Its Lasting Effects: Research and Policy Implications", 2008.
6. "School Readiness and Later Achievement". Duncan, G. J., & Magnuson, K. (2011).
7. Heckman, J.J., Pinto, R., & Savelyev, P.A. "Understanding the Mechanisms through Which an Influential Early Childhood Program Boosted Adult Outcomes", 2013.

**Т.Б. Алиева**

**Влияние стандартов дошкольного образования на учебную деятельность первоклассников**
**Резюме**

Основная цель данной статьи – исследовать влияние дошкольной программы на академическую успеваемость детей в начальной школе. В дошкольный период подготовительный этап является важной стадией, когда дети адаптируются к будущей образовательной среде и развивают интерес к обучению, а также приобретение учебных навыков. Данное исследование также анализирует факторы, влияющие на когнитивное, физическое, социально-эмоциональное и эстетическое развитие детей, изучая, как дошкольная программа способствует достижению более эффективных образовательных результатов на уровне начального образования.

**T.B. Aliyeva**

**The effect of preschool education standards on the learning activity of first grade students**
**Summary**

The main purpose of this article is to examine the influence of the preschool curriculum on the academic success of children in primary school. During the preschool period, the preparatory phase is a crucial stage where children adapt to the future educational environment and develop an interest in learning, as well as learning skills. This research also analyzes the factors affecting children's cognitive, physical, social-emotional, and aesthetic development, exploring how the preschool curriculum helps achieve more effective educational outcomes at the primary education level.

**Redaksiyaya daxil olub:** 06.11.2024